Bülleten No: 32 / avqust 2015

Elektron Hökumət Portalı
your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

AVQUST 2015

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



SYSTEM CERTIFICATION ISO 9001 SGS
SYSTEM CERTIFICATION ISO 27001 SGS
UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib



İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 6 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan müşavirəsi keçirilib.

**Prezident İlham Əliyev** müşavirədə deyib ki, bu ilin 6 ayının yekunları çox müsbətdir və Azərbaycan uğurla inkişaf edir. Dövlətimizin başçısı bildirib ki, son 6 ayda iqtisadiyyat 5,7 faiz, qeyri-neft sektoru 9,2 faiz artıb. Sənaye istehsalı təxminən 4 faiz, qeyri-neft sənayesi 14 faizdən çox artıb. Ölkədə inflyasiya 3,5 faiz, əhalinin pul gəlirləri 6,2 faiz olub. Kənd təsərrüfatında 7,3 faiz artım qeydə alınıb. Son 6 ayda ölkəmizə 12,7 milyard manat sərmayə qoyulub.

Sonra Maliyyə naziri Samir Şərifov, Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov ilin 6 ayının yekunları ilə bağlı məruzələrlə çıxış ediblər.

**Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasov** çıxışında ölkəmizdə sosial-iqtisadi sferanın bütün sahələrində olduğu kimi, hesabat dövründə, rabitə və yüksək texnologiyalar sahəsində də inkişafın təmin edildiyi və bu sahədə bir sıra uğurlara imza atıldığını diqqətə çatdırıb. Nazir çıxışında "Elektron Hökumət" portalı üzrə son 6 ayda əldə olunan inkşaf göstəricilərinə xüsusi yer ayırmış və qeyd etmişdir ki, hesabat dövründə elektron xidmətlərin verilməsi, elektron imza və "Elektron Hökumət" portalının inkişafı təmin olunub:

"Hesabat dövründə elektron xidmətlərin verilməsi, “elektron imza” və “elektron hökumət” portalının inkişafı təmin olunub. Artıq 44 hökumət və dövlət orqanından “elektron hökumət” portalına 421 xidmət inteqrasiya olunaraq vahid elektron pəncərə sistemi vasitəsilə vətəndaşlara və iş adamlarına verilir. Portalın istifadəyə verilməsindən ötən 2 il 6 ay müddətində əhaliyə, fiziki və hüquqi şəxslərə 12 milyondan çox elektron xidmət verilib. Portalın istifadəçilərinin sayı isə 2 milyondan çoxdur. Vergilər Nazirliyinin Elektron İmza Sertifikatlar Mərkəzində verilən “ASAN-imza” sistemi İslam Əməkdaşlıq Təşkilatının rəhbərliyinin diqqətini cəlb edib və təşkilat ölkələri arasında standart “elektron imza” kimi istifadə məsələsi müzakirə olunur.

Elektron informasiya resurslarının yaradılması və regional informasiya texnologiyaları xidmətlərinin verilməsində son 6 ayın uğurlarından biri də regional informasiya-hesablama mərkəzinin – DATA Mərkəzinin yaradılmasıdır. Mərkəzin istifadəyə verilməsi sentyabr ayına planlaşdırılıb. Avropa Nüvə Tədqiqatları Mərkəzi (CERN) bu DATA Mərkəzinin resurslarının təxminən 30 faizini MDB və Mərkəzi Asiya ölkələrinin regional əməkdaşlığı üçün istifadə edəcəyini planlaşdırıb və mərkəzin açılışında baş direktor səviyyəsində iştiraklarını bildirib.”

Yekun olaraq Əli Abbasov cənab Prezidentə rabitə və yüksək texnologiyalar sektorunun gələcəkdə də vətənimizin, Azərbaycan xalqının sosial-iqtisadi rifahı üçün həyata keçiriləcək işlərdə üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirəcəyini vurğulayıb.

**Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov** çıxışında nazirliyin reallaşdırdığı işlərdən, həmçinin, 2015-ci ilin 6 ayı ərzində “Elektron Hökumət” portalı vasitəsilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi elektron xidmətlərdən 1 milyon 93 min dəfə istifadə olunduğunu qeyd etmiş, bu göstəricinin ölkə üzrə ən yüksək göstəricilərdən biri olduğunu vurğulamışdır:

"Cari ilin 6 ayı ərzində “Elektron Hökumət” portalı vasitəsilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi elektron xidmətlərdən 1 milyon 93 min dəfə istifadə olunub ki, bu da ölkə üzrə ən yüksək göstəricilərdən biridir.

www.e-gov.az

Möhtərəm cənab Prezident, Sizin nazirliyin fəaliyyətinin bütün istiqamətləri, xüsusilə də ünvanlı sosial yardımların və əlilliyin təyinatında mövcud olan mənfi halların təcili aradan qaldırılması və şəffaflığın təmin olunması barədə tapşırıqlarınızın icrası sürətlə təmin edilir.

Hazırda nazirliyin mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminin (VEMTAS) yaradılması üçün müvafiq texniki infrastrukturun hazırlanması işləri yekunlaşdırılıb. Bu sistemin tətbiqi ölkə vətəndaşlarına ailə üzvlərindən birinə verilən notarial və vəkalətnamədən başqa hər hansı sənəd toplamadan və yerli orqanlara getmədən istənilən internet bağlantısı olan nöqtədən ünvanlı sosial yardım üçün nazirliyə elektron müraciət etmək və 15 gün ərzində mobil telefonuna göndəriləcək sms vasitəsilə təyinat barədə məlumat almaq imkanı yaradacaqdır. Sistemin qurulmasını Ədliyyə Nazirliyində vəkalətnamələrin avtomatlaşdırılmış qeydiyyatı bazasının mövcudluğu son dərəcə asanlaşdırıb və bu dəstəyə görə Ədliyyə Nazirliyinə, eləcə də Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə təşəkkürümüzü bildirir və ümid edirik ki, digər dövlət orqanları da öz informasiya resurslarını bu məqsədlərdən ötrü Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin istifadəsi üçün açacaqlar. Çünki vətəndaşların müraciətlərindəki məlumatlar yalnız həmin informasiyalar əsasında dəqiq yoxlanıla bilər. Dünya Bankının mütəxəssislərinin fikrincə, belə bir sistemin qurulması bütün ölkələr üçün örnək ola bilər.

Cənab Prezident, icazə verin Sizi əmin edim ki, həm ünvanlı sosial yardımların, həm də əlilliyin təyinatının avtomatlaşdırılması ilə vətəndaş-məmur təmaslarının minimuma endirilməsi barədə Sizin tapşırıqlarınız dəqiqliklə yerinə yetiriləcək və Azərbaycan Respublikasında səmərəli əmək və məşğulluq siyasətinin, həmçinin, əhalinin güclü sosial müdafiəsi sisteminin müasir əsaslarla yenidən qurulması tam təmin olunacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm."

Yekun nitqində **Prezident İlham Əliyev** ilin sonuna qədər iqtisadi artımın yüksək templərinin və makroiqtisadi sabitliyin saxlanması, dövlət investisiya proqramının, yeni infrastruktur, o cümlədən sosial layihələrin icrası ilə bağlı işlərin görülməsinin vacibliyini bildirib. Bölgələrin qaz, elektrik enerjisi və içməli su ilə təminatının daha da yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verən Prezident İlham Əliyev bu layihələrin tam icrası məqsədilə müvafiq vəsaitin ayrılacağını da deyib.

# "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

"Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 486; 2007, № 5, maddə 459; 2008, № 6, maddə 498, № 8, maddə 721) aşağıdakı dəyişikliklər edilsin:

...

4.34. 126-cı bənddə "Nəzarət vərəqələrində" sözləri "Elektron sənəd dövriyyəsi sistemi tətbiq edilən təşkilatlar istisna olmaqla, nəzarət vərəqələrində" sözləri ilə əvəz edilsin;

4.35. 138-ci bəndin ikinci abzasının birinci cümləsində "Təşkilatda olan sənədlər qanunvericiliklə" sözləri "Təşkilatda kağız və (və ya) elektron formada olan sənədlər "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda" sözləri ilə əvəz edilsin;

4.36. aşağıdakı məzmunda 18-ci hissə əlavə edilsin:

"18. Elektron sənədlərlə bağlı kargüzarlığın aparılmasının xüsusiyyətləri

140. Təşkilatların kargüzarlığı elektron formada da aparmaq hüququ vardır.

141. Sənəd elektron formada qəbul edildikdə, təşkilat bu Təlimatın 144-cü bəndində göstərilən informasiya sistemini tətbiq etməlidir.

142. Təşkilatlarda elektron sənədlərin hazırlanmasına dair ümumi tələblər aşağıdakılardan ibarətdir:

142.1. elektron sənəd "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilən tələblərə cavab verməlidir;

142.2. elektron sənəd "Unicode" standartını, "UTF-8" formatını dəstəkləməlidir;

142.3. elektron sənədin cədvəl, təqdimat, mətn, qrafik və arxivləşdirmə redaktorlarında oxunma və redaktə olunma imkanları olmalıdır;

142.4. elektron sənəd "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsi ilə müəyyən edilmiş quruluşda olmalıdır;

142.5. elektron sənədin razılaşdırılması müvafiq vəzifəli şəxsin elektron və ya gücləndirilmiş elektron imzasının əlavə edilməsi yolu ilə həyata keçirilməlidir;

142.6. elektron sənədə qoşulan bütün əlavələr vahid elektron faylda birləşdirilməli və həmin sənədi təsdiq etmək səlahiyyəti olan şəxsin elektron və ya gücləndirilmiş elektron imzası ilə təsdiqlənməlidir;

142.7. elektron sənəd dövriyyəsi sistemi tətbiq olunan təşkilatlarda kağız daşıyıcıda daxil olan sənədlər və onların əlavələri skan edilərək, eyni formatda olan vahid elektron fayla çevrilir.

143. Elektron sənədin əsli və surəti, aşağıda göstərilən tələblər də nəzərə alınmaqla, "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanır və təsdiq edilir:

143.1. elektron sənədin surəti kağız daşıyıcıda olur;

143.2. elektron sənədin surətində onun yaradıldığı tarix və sənədi qəbul edən informasiya sisteminin adı göstərilir;

143.3. elektron sənədin surətinə əl və ya çap üsulu ilə "Elektron sənədin surəti. __vərəq" sözləri yazılır və təşkilatın kargüzarlıq xidmətinin gerbsiz möhürü ilə təsdiqlənir.

144. Təşkilatlarda elektron sənədlərlə kargüzarlığın aparılması üçün aşağıdakı funksiyaların həyata keçirilməsini təmin edən informasiya sistemi tətbiq olunur:

144.1. elektron sənədin yaradılması;

144.2. rekvizitlərin və gücləndirilmiş elektron imzanın əlavə edilməsi;

144.3. elektron sənədin göndərilməsi;

144.4. elektron sənədin həqiqiliyinin yoxlanılması;

144.5. elektron sənədin alınmasının təsdiqi;

144.6. daxil olan və ya göndərilən elektron sənədin qeydiyyatı;

144.7. elektron sənədin yaradılması, qeydə alınması, göndərilməsi və saxlanılması zamanı kollektiv işin təmin edilməsi;

144.8. elektron sənədin icrasına nəzarət;

144.9. elektron sənədin axtarışı;

144.10. elektron sənədin saxlanılması.

145. Elektron sənəd aşağıdakı məlumatlar yoxlandıqdan sonra qəbul edilir və qeydə alınır:

145.1. elektron imza vasitələrindən istifadə etməklə, yoxlama məlumatları əsasında elektron sənədi təsdiq edən gücləndirilmiş elektron imzanın həqiqiliyi;

145.2. elektron sənədin bütün rekvizitləri;

145.3. gücləndirilmiş elektron imzadan istifadə etmiş imza sahiblərinin səlahiyyətləri.

146. Elektron sənəd çap edilərkən avtomatik olaraq birinci səhifənin üz tərəfində aşağıdakıları özündə əks etdirən qeydiyyat şifrəsi və ya ştrix-kod yerləşdirilməlidir:

146.1. təşkilatın tam adı;

146.2. təşkilatın hüquqi ünvanı;

146.3. elektron sənədin qeydiyyat nömrəsi və qeydiyyat tarixi.

147. Elektron sənəd göndərilməzdən əvvəl göndərən onun düzgün tərtib edildiyini (elektron imzanın, əsas və əlavə rekvizitlərin olmasını) və ünvanlanmasını yoxlayır.

148. Elektron sənədin qəbul edilməsi və qeydiyyatı onu göndərənə informasiya sistemi tərəfindən aşağıdakıları özündə əks etdirən elektron bildirişin göndərilməsi ilə təsdiq olunur:

148.1. bildirişi göndərən haqqında məlumatlar;

148.2. elektron sənədin qəbul edilməsi tarixi və vaxtı;

148.3. elektron sənədin qeydiyyatı tarixi və nömrəsi.

149. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsi ilə müəyyən edilmiş hallarda alan elektron sənədi göndərən tərəfindən göndərilməmiş hesab etməlidir.

150. Göndərən tərəf elektron sənədin qəbul edildiyi barədə elektron bildirişi alanadək, "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 27.4-cü maddəsinə əsasən elektron sənəd alınmamış hesab olunur. Elektron sənədin göndərilməsindən sonra göndərənin göstərdiyi və ya tərəflərin razılığı ilə müəyyən edilmiş müddət ərzində bildiriş alınmadıqda, göndərən bu barədə alanı məlumatlandırır və digər rabitə vasitələrindən istifadə etməklə elektron sənədin məzmununu ona çatdırır.

151. Elektron sənəd kimi qeydə alınmış sənəd kağız daşıyıcı da daxil olduqda, onun üzərinə elektron sənədin qeydiyyat nömrəsini və tarixini əks etdirən ştamp vurulur.

152. Elektron sənəd dövriyyəsi sistemi tətbiq olunan təşkilatlarda alınan və göndərilən elektron sənədlər, o cümlədən nəzarətdə olan sənədlər hərəkətin bütün mərhələlərində elektron qeydiyyat jurnalında müvafiq qeyd aparılmaqla qəbul edilir və təhvil verilir (10 və 11 nömrəli əlavələrə uyğun olaraq, elektron sənəd dövriyyəsində imza tələbi istisna olmaqla).

153. Elektron sənədlərin və onların arxivlərinin saxlanılması qaydası:

153.1. elektron sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq elektron informasiya daşıyıcılarında onların bu daşıyıcılarda bütövlüyünü yoxlamağa imkan verəcək formada saxlanılmalıdır;

153.2. elektron sənədlərin elektron informasiya daşıyıcılarında saxlanılması müddəti müvafiq sənədlərin kağız daşıyıcıları üçün "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş müddətdən az olmamalıdır;

153.3. elektron sənədlərdə olan informasiyadan gələcəkdə istifadə, həmçinin, elektron sənədlərin kağız daşıyıcıda surətlərinin çıxarılması mümkün olmalıdır;

153.4. elektron sənədin onun yaradıldığı, göndərildiyi və ya alındığı formatda bərpası mümkün olmalıdır;

153.5. elektron sənəddə onun mənbəyini və təyinatını, onu göndərəni, qəbul edəni, göndərilmə və qəbul edilmə vaxtını və tarixini müəyyənləşdirməyə imkan verən informasiya saxlanılmalıdır;

153.6. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda və ya iştirakçılar arasındakı müqavilədə başqa hal nəzərdə tutulmadıqda, elektron sənədlər onların yaradıldığı, göndərildiyi və ya qəbul edildiyi formatda saxlanılır;

153.7. elektron sənədlər daimi saxlanılmaq üçün dövlət arxivinə elektron informasiya daşıyıcısında saxlandığı formatda təhvil verilir;

153.8. elektron sənədlərin arxivləri icazəsiz daxilolma, məhv edilmə və (və ya) təhrif edilmə hallarından mühafizə olunmalıdır.

154. Elektron sənədin mühafizəsi "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa və "İdarələrarası elektron sənəd dövriyyəsi haqqında Əsasnamə"yə uyğun olaraq təmin edilir.

.....

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 iyul 2015-ci il.***

www.e-gov.az

# Elektron sənədlərlə bağlı kargüzarlıq yeni mühit yaradacaq

Prezident İlham Əliyev "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimatın təsdiq edilməsi haqqında" 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmana dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

Yeni qaydalarda elektron kargüzarlıqla bağlı bir sıra bəndlər əlavə olunub, elektron formada kargüzarlıqla bağlı yeni tələblər və standartlar müəyyən olunub. Məlum olduğu kimi hazırda Elektron Hökumət portalı tərəfindən elektron sənədlərin, elektron arayışların hazırlanması istiqamətində də ciddi addımlar atılır. Lakin elektron arayışların bütün dövlət qurumları tərəfindən tanınması sahəsində müəyyən problemlər vardı.

Qəbul edilən dəyişikliklər kifayət qədər ciddi əhəmiyyət kəsb edir. Bu qaydalar kargüzarlıqda yeni bir mərhələnin başlanğıcını qoyur. Qaydalar xüsusilə də elektron formada sənədlərin tanınmasında mühüm rol oynayacaq.

Qurumdan verilən məlumata görə, adıçəkilən Təlimatda diqqət çəkən əsas bəndlərdən biri də aşağıdakıdır:

***- Elektron sənəd çap edilərkən avtomatik olaraq birinci səhifənin üz tərəfində aşağıdakıları özündə əks etdirən qeydiyyat şifrəsi və ya ştrix-kod yerləşdirilməlidir:***
***- təşkilatın tam adı;***
***- təşkilatın hüquqi ünvanı;***
***- elektron sənədin qeydiyyat nömrəsi və qeydiyyat tarixi.***



Bu bəndin önəmli əhəmiyyəti ondan ibarətdir ki, bu vaxtadək elektron sənədlər (hətta elektron imza ilə imzalanmış sənədlər belə) çap edildikdə həmin sənədin kağız variantında sənədin kim tərəfindən, nə vaxt imzalanması, təsdiq olunması və s. barədə məlumatlar öz əksini tapmırdı.

Məlumata əsasən "Yeni qaydaların tətbiqindən sonra isə elektron sənədlərin çap edilərək kağız şəklində aidiyyatı qurumlara təqdim edilməsi də mümkün olacaq".

Kargüzarlıqla bağlı yeni qaydalar elektron sənəd dövriyyəsinin genişlənməsinə təkan verəcək və bununla da qurumlar arasında məlumat mübadiləsinin sürətlənməsinə, yazışmaların daha operativ şəkildə həyata keçirilməsinə imkan yaranacaq və əlavə vaxt itkilərinin qarşısı alınacaq.

# "Elektron Hökumət" portalının tərkib hissəsi olan Dövlət Reyestrlərinin məqsədləri

*Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2013-cü il tarixli 813 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron Hökumət" portalı haqqında Əsasnamə"yə əsasən dövlət informasiya ehtiyatlarının reyestri "Elektron Hökumət" portalının texniki-texnoloji infrastrukturunun əsas komponentlərindən biri kimi müəyyən edilmişdir. Dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrləri "Elektron Hökumət" portalının Operatoru olaraq, RYTN MHM tərəfindən aparılır.*

**Dövlət Reyestrlərinin yaradılmasında əsas məqsədlər aşağıdakılardır:**

- dövlət informasiya ehtiyatlarının uçotunun və monitorinqinin aparılması;
- dövlət informasiya ehtiyatlarının, onların təminat və mühafizə vasitələri ilə birlikdə informasiya sistemlərinin layihələndirilməsi, yaradılması və istifadəsinin əlaqələndirilməsi;
- milli informasiya fəzasının formalaşdırılması işlərinin, o cümlədən mövcud və yeni yaradılan informasiya ehtiyatları arasında mübadilə və uzlaşdırma mexanizmlərinin tam, aktual və dəqiq məlumatlarla operativ təmin olunması;
- Reyestrlə informasiya ehtiyatlarının lokal reyestrləri arasında informasiya mübadiləsi, sorğu-arayışların marşrutlandırılması işlərinin təşkilinə dəstək verilməsi;
- informasiyalaşdırma sahəsində təsnifatların və proqram-texniki həllərin unifikasiya edilməsi;
- informasiya ehtiyatlarının yaradılmasında pərakəndəlik və təkrarlanmanın qarşısının alınması məqsədi ilə şəffaflığın təmin olunması;
- dövlət informasiya ehtiyatlarının yaradılmasının və istifadəsinin səmərəliliyinin qiymətləndirilməsi;
- informasiya cəmiyyətinə keçid üzrə dövlət proqramlarının və elektron xidmətlərin göstərilməsi üzrə layihələrin həyata keçirilməsinə dəstək verilməsi;
- fiziki və hüquqi şəxslərin qanunvericiliklə müəyyən edilmiş əqli mülkiyyət hüquqlarının qorunmasına yardım edilməsi;
- informasiya ehtiyatlarını yaradan və ondan istifadə edən subyektlər arasında təcrübə mübadiləsi üçün şəraitin yaradılması, qabaqcıl texnologiyaların tətbiqinin stimullaşdırılması;

• dövlət orqanlarının, həmçinin, qanunvericiliklə müəyyən olunmuş qaydada hüquqi və fiziki şəxslərin informasiya ehtiyatları haqqında məlumatlarla təmin olunması, statistik indikatorların müəyyən edilməsi və müvafiq hesabat işlərinin təşkili;
• vətəndaşların informasiya əldə edilməsi və fərdi məlumatların mühafizəsi sahəsində hüquqlarının təmin olunması.

**Reyestrin operatoru tərəfindən aşağıdakı funksiyalar həyata keçirlir:**
• Reyestrin fəaliyyətinin təşkili;
• informasiya ehtiyatları barədə və digər xidməti məlumatların Reyestrə daxil edilməsi və təzələnməsi;
• Reyestrdən çıxarışların verilməsi;
• Reyestrə daxil edilmiş informasiya ehtiyatları barədə sənədli arxivin aparılması və saxlanılması;
• Reyestrə barəsində məlumat daxil edilmiş informasiya ehtiyatları haqqında statistik məlumatların və analitik hesabatların hazırlanması;
• Reyestrin internet portalının yaradılması və aktuallaşdırılması;
• Reyestrin dayanıqlı işləməsinin və informasiya təhlükəsizliyinin təmin edilməsi.

**Qeyd edək ki, Dövlət Reyestrlərinin formalaşdırılmasında və fəaliyyətində aşağıdakı prinsiplər əsas götürülür:**
• mövcud qanunvericiliyin tələblərinə riayət edilməsi;
• informasiyalaşdırma sahəsində milli maraqların və dövlət siyasətinin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsində iştirak edilməsi;
• informasiyanın aktuallığının və təhlükəsizliyinin (mühafizəsi, tamlığı, həqiqiliyi və müraciət imkanı) təmin olunması;
• səlahiyyət və məsuliyyət bölgüsünün müəyyənləşdirilməsi və icrasının təmin edilməsi.

Reyestrlərin formalaşdırılmasına 2012-ci ilin dekabr ayında başlanılmışdır və keçən dövr ərzində 82 dövlət informasiya ehtiyatı və 168 fərdi məlumatların informasiya sistemi reyestrlərdə dövlət qeydiyyatına alınmışdır. Hazırda da qurumlarla bu istiqamətdə lazımi işlər aparılır, məlumatlandırma xarakterli tədbirlər həyata keçirilir və qurumlara mülkiyyətlərində olan informasiya ehtiyatlarının və sistemlərinin dövlət reyestrlərində qeydiyyata alınması barədə rəsmi müraciətlər göndərilir.



Dövlət reyestrində qeydiyyata alınmış informasiya sistemlərində fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsinin "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə, habelə məlumatların və onların işlənmə üsullarının İS-lərinin bəyan olunmuş məqsədlərinə, İS-lərinin "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron Hökumət" portalına qoşulması üçün Texniki Tələblər"ə uyğunluğunun yoxlanılması məqsədilə MHM tərəfindən mütəmadi olaraq yerlərdə monitorinqlər keçirilir. Sonra hesabatlar hazırlanılır, birgə razılaşdırılır və mövcud texniki, proqram və digər çatışmazlıqlar aradan qaldırılır.

Eyni zamanda MHM tərəfindən müvafiq prinsiplərə riayət edilməklə qurumların informasiya ehtiyatları arasında "Elektron Hökumət" portalı üzərindən informasiya mübadiləsi aparılması, informasiya ehtiyatlarının yaradılmasında pərakəndəlik və təkrarlanmanın qarşısının alınması, şəffaflığın təmin edilməsi və ümumiyyətlə, qeyd edilən bütün məqsədlərə çatmaq üçün daima zəruri tədbirlər həyata keçirilir.

# Ünvanlı sosial yardımların alınması üçün "Elektron Hökumət" portalı vasitəsilə müraciət etmək mümkün olacaq

Vətəndaşların sosial təminat sahəsində sürətli, rahat və şəffaf xidmətlərə geniş çıxışının təmin edilməsi, ünvanlı dövlət sosial yardımı üzrə dövlət orqanlarının fəaliyyətinin innovativ texnologiyaların tətbiqi ilə qabaqcıl dünya təcrübəsinə uyğun təşkil edilməsi və bu əsasda aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminin (VEMTAS) yaradılması üçün müvafiq texniki infrastrukturun hazırlanması işləri artıq yekunlaşdırılıb.

Vətəndaşlar tərəfindən ünvanlı dövlət sosial yardımının alınması üçün elektron formada müraciət (ərizə) göndərilməsi üçün proqram təminatı hazırlanaraq ilkin testləşdirmə işlərinə başlanılıb.

Testləşdirmə prosesində proqram təminatından vətəndaşların asan və rahat şəkildə istifadəsinin təmin edilməsi məqsədilə onun funksional imkanları diqqətlə yoxlanılır və aşkarlanan hər hansı problem aradan qaldırılır. Bu işlər başa çatdıqdan sonra həmin proqram təminatının pilot rejimdə istifadəyə verilməsi planlaşdırılır.

Proqram təminatı istifadəyə verildikdən sonra hər hansı vətəndaş ailəsinə ünvanlı dövlət sosial yardımı almaq üçün internet vasitəsilə elektron qaydada müraciət edə biləcək. Müraciət qəbul edildikdən sonra proqram təminatı tərəfindən təyin olunmuş qrafik əsasında müraciətin edildiyi ailənin maddi-məişət şəraitinin müayinəsini aparacaq.

Ailənin maddi-məişət şəraitinin müayinəsi təyin olunmuş müddət ərzində və müvafiq proqram təminatı ilə təchiz edilən xüsusi kompüter avadanlıqları vasitəsilə həyata keçiriləcək. Müayinənin nəticələri real vaxt rejimində VEMTAS-a ötürüləcək.

www.e-gov.az

Elektron müraciət edən vətəndaşın vəziyyətinin araşdırılması üçün ondan əlavə arayış və məlumatlar tələb edilməyəcək. Ünvanlı dövlət sosial yardımına edilən müraciətə baxılması üçün müvafiq məlumatların "Elektron Hökumət" portalı üzərindən aidiyyəti dövlət qurumlarının informasiya resurslarından real vaxt rejimində əldə edilməsi təmin olunacaq. Əldə olunan bütün məlumatlar ümumiləşdirildikdən və təhlil edildikdən sonra VEMTAS tərəfindən müraciət edən şəxsin ailəsinə ünvanlı dövlət sosial yardımının təyin olunub-olunmaması barədə qərar qəbul ediləcək.

Vətəndaşın ailəsinə ünvanlı dövlət sosial yardımının təyin olunub-olunmaması barədə məlumat onun elektron ünvanına, yaxud mesaj formasında mobil telefon nömrəsinə göndəriləcək. Ailəsinə ünvanlı dövlət sosial yardımı təyin olunduğu halda yardımın ödənilməsi məqsədilə həmin şəxsə bank hesabının açılması üçün sistem tərəfindən müvafiq banka sifarişin göndərilməsi avtomatik şəraitdə həyata keçiriləcək və bankın ünvanı və bank kartının hansı tarixdə təhvil götürülməli olduğu barədə məlumatlar analoji olaraq ailəni təmsil edən şəxsin elektron ünvanına və yaxud mesaj formasında mobil telefonuna göndəriləcək.

Yeni sistem işə düşdükdən sonra vətəndaşlar kompüterlərindən, mobil telefonlardan və poçt şöbələrində xüsusi quraşdırılmış infoköşklərdən və kompüterlərdən istifadə etməklə ünvanlı yardım almaq üçün müraciət edə biləcəklər. Zəruri texniki imkanlara, xüsusi proqram təminatına malik həmin infoköşklər bütün şəhər və rayonlarda poçt şöbələrində quraşdırılacaq və onlar "Elektron Hökumət" portalına qoşulacaq.

Beləliklə, ünvanlı dövlət sosial yardımı sisteminin avtomatlaşdırılması aztəminatlı ailələrin çevik, rahat və şəffaf xidmətlərlə təmin olunmasına şərait yaradacaq.

## 23 dövlət qurumu mülkiyyətində olan informasiya sistemlərindən səmərəli istifadənin müəyyən edilməsi üçün göndərilmiş anket sorğusunu cavablandırıb

Xəbər verdiyimiz kimi, mövcud qanunvericiliyə uyğun olaraq cari ilin sentyabr ayından başlayaraq "Elektron Hökumət" portalının Operatoru tərəfindən dövlət orqanlarının mülkiyyətində olan informasiya sistemlərinin növbəti monitorinqinin keçiriləcəyi planlaşdırılır.

Bununla əlaqədar müvafiq məlumatların əvvəlcədən əldə edilməsi məqsədilə RYTN Məlumat Hesablama Mərkəzi tərəfindən dövlət qurumlarının mülkiyyətlərində olan informasiya sistemlərindən səmərəli istifadənin müəyyən edilməsi üçün anket sorğusu hazırlanaraq 36 dövlət qurumuna göndərilmişdir.

Artıq aşağıda göstərilən 23 dövlət qurumu tərəfindən informasiya sistemlərindən səmərəli istifadənin müəyyən edilməsi üçün tərtib olunmuş anket sorğusu cavablandırılmışdır:

1. Kənd Təsərrüfatı Nazirliyi
2. Tələbə Qəbulu Üzrə Dövlət Komissiyası
3. Müəllif Hüquqları Agentliyi
4. Dövlət Statistika Komitəsi
5. Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi;
6. Diasporla İş Üzrə Dövlət Komitəsi
7. Fövqəladə Hallar Nazirliyi
8. Gənclər və İdman Nazirliyi
9. İqtisadiyyat və Sənaye Nazirliyi
10. Vergilər Nazirliyi
11. Ekologiya və Təbii Sərvətlər Nazirliyi
12. Energetika Nazirliyi
13. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
14. Müdafiə və Sənaye Nazirliyi
15. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
16. Azərsu ASC
17. Əmlak Məsələləri Dövlət Komitəsi
18. Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi
19. Dövlət Miqrasiya Xidməti
20. Azərenerji ASC
21. Milli Arxiv İdarəsi
22. Satınalmalar üzrə Dövlət Agentliyi
23. Ədliyyə Nazirliyi

Hesab edirik ki, sorğular cavablandırıldıqdan sonra qurumlarda monitorinqlərin keçirilməsi daha operativ və səmərəli olacaqdır.

Qeyd edək ki, monitorinqlər zamanı əsasən aşağıdakı məsələlərə diqqət yetiriləcəkdir:

- informasiya ehtiyatlarının FİN-ə uyğunluğu;
- fərdi məlumatların mühafizəsinin müəyyən olunmuş tələblərə uyğun təşkili;
- informasiya ehtiyatlarında məlumatlar bazasının strukturu ilə tanışlıq, bazalar arası relativlik prinsiplərinin yoxlanılması;
- fərdi məlumatların toplanılmasının və işlənilməsinin mülkiyyətçi və ya operator tərəfindən bəyan edilmiş məqsədlərə uyğunluğu;
- digər əlaqəli informasiya sistemləri ilə informasiya mübadiləsi üsulları və kateqoriyalarının monitorinqi;
- informasiya sistemlərinin və ehtiyatlarının Portala qoşulması və onların tələblərə uyğunluğunun yoxlanılması;
- informasiya sisteminin və ehtiyatlarının Elektron Hökumət portalı ilə əlaqəli olan komponentlərinin tələblərə uyğunluğu;
- informasiya sisteminin SOAP (Simple Object Access Protocol) vasitəsilə sorğularla işləmə imkanı;
- dövlət orqanlarının informasiya sistemlərinin və ehtiyatlarının qarşılıqlı inteqrasiyasının təmin edilməsi məsələləri;
- dövlət orqanları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılma imkanlarının araşdırılması;
- qanunvericiliyə uyğun və sair aidiyyəti məsələlərin monitorinqi.

Xatırladırıq ki, sorğunu cavablandırmaq üçün **https://www.e-gov.az/sorgu** linkinə e-imza vasitəsilə daxil olaraq "Dövlət təşkilatlarında elektron xidmətlərin səmərəliliyini qiymətləndirən tədqiqat sorğusu"nda bəndlər üzrə müvafiq məlumatları doldurub, təsdiq etməklə elektron şəkildə göndərmək və ya həmin linkdən anket formasını çap edib, məlumatları doldurub təsdiq edərək kağız şəklində RYTN-in Məlumat Hesablama Mərkəzinə göndərmək olar.

# Vizaların verilməsi tam elektronlaşmalıdır




Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları ilə bağlı keçirilən iclasda daha böyük sayda turistin ölkəmizə səfərini təmin etmək üçün elektron viza məslələrinə də toxunub. Bu sahədə ciddi problemlərin olduğunu qeyd edən Prezident İlham Əliyev aidiyyatı dövlət qurumlarına bununla bağlı tapşırıqlar verib.

Dövlət başçısı qeyd edib ki, son dövrlərdə viza məsələsi, xüsusilə də elektron viza ilə bağlı ölkə qanunvericiliyində bir sıra yeniliklər qəbul edilib. Qanunvericilikdə elektron formada viza əldə edilməsi də öz əksini tapıb.

*Elektron vizanın verilməsi ilə bağlı Prezident İlham Əliyev "Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə viza rəsmiləşdirilməsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında" 20 noyabr 2012-ci il tarixdə və "Vizaların verilməsi işinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında 20 noyabr 2014-cü il tarixdə sərəncamlar imzalayıb.*

Bununla belə bu sahədə işlərin daha operativ görülməsi, elektron formada viza alınması prorseslərinin sürətləndirilməsi üçün müəyyən addımların atılmasına ehtiyac vardır.

**Xeberler.az** Prezidentin çıxışından sonra e-viza ilə bağlı proseslərin sürətləndirilməsi, bu sahənin daha çevik və effektiv qurulması ilə bağlı Elektron Hökumət portalının operatoru ilə müzakirələr aparmışdır.

Elektron hökumət portalının operatoru məsələ ilə **Xeberler.az** -ın suallarına münasibət bildirib:

**- Elektron viza xidmətinin əsasları necə formalaşır? E-viza üçün müraciət qaydaları, zəruri proseduralar necə müəyyən olunub?**

- Dünya təcrübələrində miqrasiya prosesinin sadələşdirilməsi məqsədilə aidiyyatı saytlarda viza üçün sorğu anketi təqdim edilir. E-viza sorğu anketində immiqrantın fərdi məlumatları ilə yanaşı, səfərin məqsədi və müddəti qeyd edilir, xarici pasportun surəti yüklənilir, vizanın növü, turistik, işgüzar (biznes), rəsmi səfər, təhsil, müalicə, şəxsi (qohum və ya dostların ziyarəti), tranzit, idman yarışlarında iştirakı qeyd edilir. Həmçinin viza üçün tələb olunan dövlət rüsumu sayt üzərindən plastik kartlar vasitəsilə elektron şəkildə ödənilir. Müəyyən edilmiş zaman ərzində (3-5 iş günü, Avropa ölkələrində 14 gün) anketdə göstərilmiş elektron ünvana verilmiş vizanın təsdiqi barədə bildiriş göndərilir. Bəzi ölkələrdə eyni informasiya link şəklində mobil telefona göndərilir.

Böyük Britaniya kimi bir çox inkişaf etmiş ölkələr elektron vizaların qeydiyyatı "bir pəncərə" prinsipi əsasında vahid elekton mühitdən, Elektron Hökumət portalı üzərindən həyata keçirilir.

**- Azərbaycanda da bu kimi fəaliyyət nəzərdə tutulurmu?**

- Hazırda vətəndaşlara 400-dən artıq növdə e-xidmət göstərən Elektron Hökumət portalı tərkibində immiqrantlar üçün yeni bölmə yaratmaq olar. Gələcəkdə bu bölmənin funksiyalarını genişləndirərək Azərbaycana ziyarət edən əcnəbilər üçün zəruri elektron xidmətlər hətta ünsiyyət platforması da təqdim etmək olar.

**- Ölkəmizdə e-viza məsələsinin həllində ən effektiv üsul kimi nəyi təklif edirsiniz?**

- Bu məsələnin tənzimlənməsində dövlət vətəndaş tərəfdaşlığı, dövlət və özəl strukturun öhdəlikləri var. Belə ki, dövlət sektoru elektron vizanın verilməsi üçün tələb olunan bir sıra sənədlərin siyahısını və növlərini hazırlayır, e-viza üçün dövlət rüsumu və internet üzərindən onlayn qaydada ödəmə üsullarını müəyyənləşdirir, sənədlərin qeydiyyatı və viza verilməsi prosesinin müşayəti əsasında fəaliyyət növünün həyata keçirilməsinə icazə verir və layihənin realizasiyası zamanı mövcud qanunvericiliyə əməl olunmasına nəzarət edir.

Özəl tərəfdaşlar isə elektron viza sisteminin real vaxt rejimində sabit işini təmin edir (saytın dəstəyi, məlumatların ötürülməsi, zəng mərkəzinin fəaliyyəti və istifadəçi dəstəyi), e-viza dövlət rüsumları üzrə əldə olunan vəsaitlərin toplanılmasını həyata keçirir, e-viza dövlət rüsumları üzrə əldə olunan vəsaitlərdən dövlət tərəfindən müəyyənləşdirilmiş məbləği büdcəyə köçürür. Məsələn, qonşu Türkiyədə elektron viza sistemi tam formalaşıb.

**- Türkiyə təcrübəsinin üzərində bir qədər dayanmaq istərdik. Onlarda bu fəaliyyət necə həyata keçirilir?**

- Türkiyədə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 10 gün ərzində akkreditasiyadan keçmiş, fəaliyyəti 1 ildən az olmayan lisenziyalı turizm şirkətlərinə e-viza verməyə icazə verilir. Türkiyədə e-viza saytı isə Xarici İşlər Nazirliyinə aiddir. Sayt türk dili də daxil olmaqla 9 dildə fəaliyyət göstərir (ərəb, alman, ingilis, ispan, fransız, holland, polyak, çin). Sayta daxil olduqda açılan pəncərədə istifadəçiyə üç xidmət təklif olunur.

Vizanın müddəti 180 gündür. Viza almış şəxs 90 gündən artıq Türkiyədə qala bilməz. Müəyyən olunmuş müddətdən artıq qalmaq üçün rayon Polis İdarəsinin xaricilər şöbəsinə müraciət etməlidir.

Növbəti mərhələdə isitifadəçinin məlumatları təsdiq edilir. Məlumatlar təsdiq edildikdən sonra bu barədə bildiriş immiqrantın elektron poçt ünvanına göndərilir. İstifadəçi 1 saat müdətində göndərilmiş bildirişin doğruluğunu təsdiq etməlidir, əks təqdirdə müraciət ləğv olunur.

www.e-gov.az
Xəbərlər

**- Bununla bağlı ödəniş necə həyata keçirilir?**

- Ödəniş mərhələsində istifadəçi bildiriş və xarici pasportun nömrəsi, elektron poçt ünvanı barədə məlumat verməklə ödəniş etməlidir.

E-vizanı yüklə bölməsində istifadəçi bildirişin və xarici pasportun nömrəsi, elektron poçt ünvanı barədə məlumat verməklə e-vizanı yükləyə bilər.

E-viza üzərindəki QR kod viza sahibinin məlumatları üzrə Türkiyə Cümhuriyyətinin Xarici İşlər Nazirliyi tərəfindən müəyyən edilən formada kodlaşdırılır və imzalanılır. QR – kodun tərkibində olan məlumatlara daxil olmaq səlahiyyəti yalnız Xairici İşlər Nazirliyi tərəfindən səlahiyyətləndirilən qurumlara verilib.

**- Bizdə e-viza üçün anketi haradan əldə etmək olar?**

- Hazırda ölkəmizdə e-viza almaq üçün Xarici İşlər Nazirliyinin rəsmi saytında http://www.mfa.gov.az/anket təqdim edilir. E-viza anketini 2 dildə, ingilis və Azərbaycan dilində tamamlamaq mümkündür. E-Viza 3 həftə dəyərləndirildikdən sonra immiqrantın anketdə göstərdiyi elektron poçt ünvanına PDF formatında göndərilir, bundan sonra isə immiqrant əldə etdiyi vizaya möhür vurdurmaq üçün aidiyyatı quruma yaxınlaşmalıdır.

**- E-vizanın alınması üçün qaydalarda hansısa yeniliklər gözlənilirmi?**

- Prosesin tam elektronlaşmasına ehtiyac var. Bu isə immiqrantların işini asanlaşdırmaqla yanaşı ölkəmizə səyahət etmək istəyən xarici immiqrantlarda motivasiya yaradacaq. Bununla bağlı olaraq, Prezident İlham Əliyevin tapşırığına əsasən, tezliklə ölkəmizdə tam elektronlaşmış e-viza sistemi tətbiq ediləcək. Bu təşəbbüs, heç şübhəsiz, ölkəmizin dünya ölkələri ilə bütün sahələrdə qarşılıqlı əməkdaşlığını, o cümlədən, ölkəmizə turist axınını təmin edəcək.

# MilliKart tərəfindən CİB mobil ödənişlər əlavəsi istismara verilmişdir

MilliKart ən innovativ CİB mobil tətbiqi vasitəsini elektron rahatlıqlarını öz həyat tərzinə çevirmiş vətəndaşların ixtiyarına verib. Bu mobil tətbiq vasitəsilə istifadəçilər asanlıqla kart vəsaitlərini idarə edə və maliyyə durumları haqqında məlumat ala bilirlər. Bir sözlə MilliKartın yaratdığı yeni əlavə mobil qurğulardan pul köçürməklə, aparılmış əməliyyatların detallarına baxmağa imkan verən yeni və müasir həyatımızda hər birimiz üçün faydalı olan mobil tətbiqdir.

millikart group

Cib müxtəlif ödəniş və köçürmə imkanlarını aparmağa imkan verir. Yəni bu mobil tətbiqin köməyi ilə, bir çox xidmət haqqını (mobil telefon, stasionar telefon xidmət haqlarını), kommunal ödənişləri (Azəriqaz, Azərişıq və Azərsu xidmətləri), ölkəmizdə fəaliyyət göstərən bütün internet provayderlərin xidmət haqlarını, kabel televiziya xidmət haqlarını, Dövlət Yol Polisi və Vergilər Nazirliyinin ödənişlərini və mobil ilk olan pul köçürmələrini də onlayn ödəmək mümkündür.

CİB yeganə tətbiqdir ki, vətəndaşlar bütün bank hesablarını bir tətbiqdə cəmləşdirə bilər. Eyni zamanda bu tətbiqi vasitəsilə bir kart hesabından digərinə sürətli, asan və etibarlı şəkildə pul köçürmək mümkündür. Limitsiz sayda istənilən yerli və ya beynəlxalq bank tərəfindən buraxılmış Visa və Mastercard beynəlxalq ödəniş sistemlərinin kartlarını əlavə edə biləcəyiniz daim yenilənən bu mobil tətbiqlə həyata keçirəcəyiniz əməliyyatlar ödənişsizdir. CİB mobil qurğunun əməliyyat sisteminə yüklənən mobil bankçılıq əlavəsi və server əlavəsinə əsaslanır. Mobil əlavə əsas mobil platformalarını dəstəkləyir və bazarda olan qurğuların 95% əhatə edir. Həmçinin, müasir dövrdə insanları narahat edən təhlükəsizlik və etibarlılığın həllinə isə CİB 100% zəmanət verir. Belə ki, burda əlavənin yüklənmə ölçüləri təxminən 200kB : 3000kB diapazonundadır, bu da öz növbəsində əməliyyatların ən efektiv yol ilə həyata keçməsini təmin edir. Həmçinin, bütün məlumatlar PCI DSS standartına uyğun olaraq saxlanılır. Bir sözlə Kart məlumatları, ödəniş və köçürmə tarixçəsi VİSA/MasterCard beynəlxalq ödəniş sistemlərinin bütün təhlükəsizlik tələbləri və qaydalarına uyğun olaraq qorunub saxlanılır. Əgər istifadəçi CİB-ə qoşulmuş mobil telefonunu itirsə mümkün qədər tez zamanda Texniki dəstək Xidməti ilə əlaqə saxlayıb xidməti, sonra mobil operatoruna müraciət edib mobil telefonunu bloka salmalıdır.

Təqdim edilən xidmətlərdən istifadə etmək üçün proqramı mobil cihazınıza yükləyib qeydiyyatdan keçmək tələb olunur. Qeydiyyatdan keçmək sadə və pulsuzdur. Mobil telefon nömrəsi qeyd edildikdən sonra sistem tərəfindən SMS vasitəsilə müvafiq sahəyə daxil etmək üçün təsdiq kodu göndərilir. Sonrakı mərhələdə kart məlumatları daxil edilərək kart proqrama əlavə edilir. Cib-ə üzv olmaq üçün heç bir abunə haqqı tələb olunmur. Bir ay sınaq müddəti üçün xidmətdən pulsuz istifadə təklif olunur. Sınaq müddəti başa çatdıqdan sonra hər əlavə edilən karta görə ayda cəmi 20 qəpik xidmət haqqı tutulacaqdır.

Kartı əlavə etmək üçün isə kartın üzərində nömrəsi (16 rəqəm), AY/İL formatında etibarlılıq müddəti və CVV2/CVC göstərilmişdir. Sonuncu göstəricilər kartın arxa tərəfində, maqnit zolağının altında yerləşir və üç rəqəmdən ibarətdir. Bütün məlumatları “Kart əlavə et” ekranındakı müvafiq sahələrə daxil edilir və vətəndaşa SMS vasitəsilə 0.01 AZN məbləğində əməliyyatın təsviri və “CIB****CODE” formatında kod göndərilir. Həmin kod müvafiq sahəyə daxil edilir. Əvvəlcədən yaradılmış şablonlar növbəti ödənişləriniz və pul köçürmələrinizi tez və rahat şəkildə həyata keçirməyə imkan verir. Onu da qeyd edək ki, ödənişlərin əksəriyyəti, dövlət ödənişləri və pul köçürmələri istisna olmaqla, heç bir komisiyaya tabe deyil, təhlükəsizlik məqsədi ilə bütün ödənişlərin tarixçəsi saxlanılır.

Cib mobil əlavəsi vətəndaşın şəxsi məlumatlarının gizliliyini və təhlükəsizliyini təmin etməklə 7/24 zaman ərzində xidmət göstərir. Həmçinin, yaranan hər bir problem və anlaşılmamazlıqla bağlı support@cib.az - http://cib.az və *8893 nömrəli telefonla Texniki dəstək Xidməti aktivdir.

# Elektron hökumətin dəstəyi olmadan biznes sektorunun dinamik inkişafı qeyri-mümkündür

**Azərbaycanda biznes sektoru dinamik inkşaf dövrünü yaşayır və bu sahənin inkişafına ən yüksək səviyyədə xüsusi diqqət yetirilir. Biznes mühitinin təkmilləşdirilməsi və sahibkarlığın inkişafına dövlət dəstəyinin artırılması ümumilikdə ölkəmizin tərəqqisində və sosial sahənin dirçəlişində mühüm rol oynayır.**



Ötən il martın 3-də sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə ölkə Prezidenti "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalamışdır. Müvafiq fərman hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin (fərdi sahibkarların) "bir pəncərə" prinsipinə uyğun olaraq elektron qeydiyyatı zamanı prosedurların, tikintiyə icazələrin verilməsi sahəsində prosedurların, elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində sənədlərin elektron qaydada qəbulunun, idxal-ixrac əməliyyatları zamanı tələb olunan prosedurların, daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı sahəsində prosedurların sadələşdirilməsi, habelə, korporativ idarəetmənin təkmilləşdirilməsi və investorların maraqlarının qorunması, kreditlərin verilməsi prosesinə təsir edən təsisatların fəaliyyətinin təkmilləşdirilməsi məsələlərini əhatə edir.

Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev Bakıda keçirilən GUAM Ticarət və Nəqletməyə Yardım layihəsinin həyata keçirilməsi üzrə Rəhbər Komitənin 22-ci iclasında etdiyi çıxışında elektron ticarət və e-hökumətin əhəmiyyətindən danışıb. Sədr öz çıxışında "Bu gün "Elektron Hökumət"in inkişafı olmadan biznesə yardım qeyri-mümkündür" fikrini səsələndirib və bununla da e-xidmətlərin əvəzedilməz əhəmiyyətini xüsisilə vurğulayıb. Məruzəçi qeyd edib ki, XXI əsrin əsas inkişaf meyillərindən olan elektron ticarət, onun dövriyyəsi və "Elektron Hökumət" dövlətlərin əsas inkişaf göstəricilərindən birinə çevrilib. Azərbaycanda "Elektron Hökumət" çərçivəsində böyük işlərin görülməsi, "Elektron Hökumət"in genişlənməsi, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin elektronlaşdırılması əhalinin ona olan marağını daha da artırıb. A.Əliyev Dövlət Gömrük Komitəsinin də sözügedən istiqamətdə mühüm addımlar atdığını diqqətə çatdırıb. Belə ki, Dövlət Gömrük Komitəsinin "Elektron Hökumət" portalı vasitəsilə təqdim etdiyi aşağıdakı elektron xidmətlər birbaşa biznes sahələri üçün nəzərdə tutulmuşdur:

- *Gömrük ödənişləri*
- *Gömrük ödənişlərinin ödəyicisinin eyniləşdirmə nömrəsinin alınması*
- *Malın adına görə malların təsvirin axtarışı*
- *Malın koduna görə malların təsvirin axtarışı*
- *Mənim idxal/ixrac əməliyyatlarım*
- *Nəqliyyatın idxalı üçün gömrük rüsumlarının hesablanması*

Qeyd etmək lazımdır ki, "Elektron Hökumət" portalı üzərindən təqdim olunan e-xidmətlər yeni biznes sahələrinin yaranmasında və inkişafında böyük əhəmiyyətə malikdir. Portalda biznes sahiblərinin ixtiyarına verilən elektron xidmətlərin çeşidi genişdir. Bu baxımdan Vergilər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Əmlak Məsələləri Dövlət Komitəsinin, Dövlət Statistika Komitəsinin, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Satınalmalar üzrə Dövlət Agentliyinin, Mədəniyyət və Turizm Nazirliyinin və sair qurumların onlarla xidmətlərini misal göstərmək olar. Açıq Hökumət Məlumatları (data.gov.az) portalının Biznes üçün əhəmiyyətini də xüsusilə vurğulamaq vacibdir. Belə ki, Açıq Hökumət məlumatları ictimai xarakter daşıyan informasiyanı (iqtisadi inkişaf statistikası, hava proqnozu, yağmur xəritəsi, seysmik zonalar xəritəsi, poçt məntəqələri, taksafon aparatları, benzindoldurma məntəqələri, nəğd ödəniş terminalları, rabitə tarifləri, şəhərlərarası və beynəlxalq kodlar və s.) vətəndaşların istifadəsinə təqdim edir və bu məlumatlardan, heç bir patent, ödəniş, lisenziya, icazə və məhdudiyyət olmadan istifadəçilər istənilən vaxt, istənilən formada yararlana bilərlər.

E-imza sertifikatlarının rolunu xüsusilə qeyd etmək lazımdır. Çünki istənilən biznesin təşkilində və inkşafında vaxta qənaətlə yanaşı məlumat mübadiləsi zamanı ötürülən informasiyanın təhlükəsizliyinin qorunması çox mühüm məsələdir. Həmçinin, elektron əməliyyatların həyata keçirilməsi zamanı vətəndaşın kimliyinin ayırd edilə bilməsi də biznes üçün təhlükəsizlik qədər vacib məsələdir. Bütün bunlarla yanaşı elektron imzanın kağız əməliyyatlarının ləğvi, sənədlərlə iş prosesində şəffaflıq, eyni sənədlə istənilən sayda istifadəçinin işləmə imkanı, hesabatların hazırlanmasında avtomatlaşdırma, idarəetmə effektivliyinin yüksəldilməsi və s. kimi istifadə səmərələri mövcuddur.

"Elektron Hökumət" portalının Operatoru istər texniki, istərsə də təklif etdiyi innovativ xidmətlər vasitəsilə biznes sahələrini dəstəkləməyə hər zaman hazırdır. Bu strategiya hazırda bir neçə istiqamətdə reallaşdırılır.

Birinci istiqamət, hazırda elektron arayışlar ilə portal üzərindən 25-ə yaxın bank və lizing şirkətləri ilə əməkdaşlıq edərək vətəndaşlara sadələşdirilmiş xidmət təklif edir. İkinci istiqamət, MHM Açıq Hökumət Məlumatları üzrə startup layihələrinin təşkilatçısı və iştirakçısı kimi fəaliyyət göstərir. Üçüncü istiqamət, cari ildə "Elektron Hökumət" infrastrukturu üzrə bir çox sahələrdə, xüsusəndə ali məktəblərdə, kolleclərdə "Elektron Hökumət" istiqaməti üzrə maarifləndirici tədbirlər həyata keçirilmiş, bank işçilərinə, jurnalistlərə və gələcəyin iş adamları olan tələbələrə ölkədə cərəyan edən elektronlaşma prosesləri və startup layihələr barədə geniş məlumat verilmişdir.

www.e-gov.az

# Daşınmaz əmlakın təkrar qeydiyyatında yeni onlayn xidmət tətbiq ediləcək

***Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 15 iyul tarixdə "Daşınmaz əmlakın təkrar qeydiyyatında yeni onlayn xidmət" mövzusunda İctimai Təqdimat keçirilib. Tədbirdə Əmlak Məsələləri Dövlət Komitəsinin Aparatı və ərazi idarələrinin, aidiyyəti dövlət qurumlarının, ictimai təşkilatların, bələdiyyələr və notariat orqanlarının, daşınmaz əmlak agentlərinin səlahiyyətliləri və mətbuat nümayəndələri iştirak edib.***



Yeni onlayn xidmətin tətbiqində məqsəd daşınmaz əmlakın qeydiyyatını daha da sadələşdirmək, qeydiyyat üçün lazım olan prosedurları minimuma endirmək, vaxt itkisini və əlavə müraciəti aradan qaldırmaq idi. Tədbirin digər məqsədi müasir dövrdə elektron əmlak idarəçiliyi sisteminin qurulmasında, məmur-vətəndaş ünsiyyətinin azaldılmasında yeni onlayn xidmətlərin rolu və faydaları barədə ictimaiyyəti məlumatlandırmaq idi.

Tədbiri giriş sözü ilə Əmlak Məsələləri Dövlət Komitəsinin sədr müavini Rafiq Cəlilov açıq elan edib. Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun olaraq Komitə tərəfindən xidmət səviyyəsinin yüksəldilməsi, şəffaflığın və çevikliyin daha da artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Qeydiyyat prosesinin sadələşdirilməsi, informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə, elektron və onlayn xidmətlərin tətbiqi, xidmət şəraitinin və dövlət qulluqçularının etik davranış səviyyəsinin yüksəldilməsi bu sahədə atılan ardıcıl addımlardır.

Məhz yeni onlayn xidmətin istifadəyə verilməsi ilə daşınmaz əmlakın təkrar qeydiyyatında əvvəllər mövcud olmuş daha bir prosedur aradan qalxıb. Belə ki, vətəndaşların, fiziki və hüquqi şəxslərin notariusda rəsmiləşdirdikləri daşınmaz əmlaka dair təkrar bazarda alqı-satqı sənədləri artıq onlayn rejimdə ərazi qeydiyyat idarələrinə göndəriləcək. Bununla da, vətəndaşların notariusda edilən alqı-satqı əməliyyatından sonra sənədləşmə üçün yenidən ərazi qeydiyyat idarəsinə gəlməsinə ehtiyac qalmayıb.

Ümumiyyətlə, qeyd edək ki, əgər əvvəllər qeydiyyat üçün 4 prosedur tələb olunurdusa, onlayn xidmətlərin istifadəyə verilməsindən sonra bu say 2-yə enib. Belə ki, ötən il daşınmaz əmlakın yüklülüyünə dair Forma-1 arayışlarının onlayn verilməsi xidməti istifadəyə verilib. Bu il isə növbəti onlayn xidmətin tətbiqi ilə qeydiyyat prosesi daha da sadələşib. Gələcəkdə isə daha yeni elektron və onlayn xidmətlərin istifadəyə verilməsi nəzərdə tutulur.

Qeyd edək ki, komitənin onlayn xidmətləri, o cümlədən təqdimatı keçirilən yeni onlayn xidmət Dünya Bankının dəstəyi ilə həyata keçirilən "Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi" çərçivəsində istifadəyə verilib. Bu onlayn xidmət Daşınmaz Əmlakın Milli Qeydiyyatı Sistemi (MQS) əsasında fəaliyyət göstərəcək. Belə ki, daşınmaz əmlakın təkrar qeydiyyatı ilə bağlı alqı-satqı müqaviləsi bağlandıqdan sonra müqavilə barədə məlumatlar onlayn rejimdə Sistemə ötürülür. Sistemdə isə avtomatik olaraq daşınmaz əmlakın qeydiyyatı ilə bağlı ərizənin nömrəsi və çıxarışın hazır olma tarixi bəlli olur. Bu barədə vətəndaşa elektron və kağız formada bildiriş verilir. Eyni zamanda, yeni onlayn xidmətin tətbiqindən sonra qeydiyyatla bağlı dövlət rüsumu və xidmət haqqı ödənişlərini də onlayn qaydada həyata keçirmək mümkündür. Belə ki, ərizəçi birbaşa alqı-satqı əməliyyatını həyata keçirdiyi məkanda quraşdırılmış onlayn ödəniş terminallarında müvafiq ödənişləri edə bilir. Bununla da, vətəndaşın rüsum və xidmət haqlarını ödəməsi üçün əlavə yerə getməsinə ehtiyac qalmır.

Yeni onlayn xidmət təkrar daşınmaz əmlak bazarında aktivliyi artıracaq, alqı-satqı proseslərinin daha operativ həyata keçməsini təmin edəcək. Bu sahədə əlavə vaxt itkisinə səbəb olan amillərin aradan qalxmasına səbəb olacaq. Şəffaflıq, rahatlıq və operativliyin yüksəlməsi ilə vətəndaş məmnunluğunun artmasına gətirib çıxaracaq.

Qeyd edək ki, Komitə tərəfindən 2015-ci ildə vətəndaşlara müxtəlif fəaliyyət istiqamətləri üzrə 75 mindən çox elektron xidmət göstərilib. Ümumilikdə isə, indiyədək elektron xidmətlər vasitəsilə fiziki və hüquqi şəxslər tərəfindən 220 mindən çox müraciət qəbul edilmiş və qanunvericiliyə uyğun olaraq təmin olunmuşdur.

Hazırda Komitənin fəaliyyət sahələri üzrə 3 SMS və 31 elektron xidmət, o cümlədən 2 onlayn xidmət vətəndaşların istifadəsindədir. Bu xidmətlər həm "Elektron Hökumət" portalı (www.e-gov.az), həm də komitənin elektron xidmətlər portalı (www.e-emdk.gov.az) üzərindən təqdim olunur. Bu xidmətlərdən 2-si bu ilin əvvəlində istifadəyə verilib. Həmin xidmətlər isə Nazirlər Kabinetinin iyun ayında verilmiş müvafiq Qərarı ilə təsdiq edilib. Bunlara "Kiçik dövlət müəssisələrinin (obyektlərinin) əmək kollektivi üzvlərinə güzəştli satışı" və "İxtisaslaşdırılmış pul hərraclarında sifarişlərin və sənədlərin elektron qəbulu" aiddir. Bu il yeni elektron xidmətləri istifadəyə verməkdə məqsəd özəlləşdirmə prosesində elektron hərracların tətbiqini genişləndirməkdir. Komitənin təqdim etdiyi 31 elektron xidmətdən 21-i daşınmaz əmlakın qeydiyyatı, 10-u isə dövlət əmlakının özəlləşdirilməsi, idarə edilməsi və icarəsi ilə bağlıdır. Eyni zamanda, bu xidmətlərin 27-si interaktiv, 4-ü isə informativ xidmətlərdir.

Təqdim edilən onlayn və elektron xidmətlər vətəndaşlarla komitənin qurumları arasında şəffaf və maneəsiz əlaqə yaradılması, vətəndaşların müxtəlif istiqamətlər üzrə çevik elektron xidmətlər əldə etmələrinə şərait yaradır.

Tədbirdə qeyd olunub ki, Komitənin yeni Əsasnaməsinin təsdiq olunmasından sonra mülkiyyət hüquqlarının tənzimlənməsində vahid mərkəzdən idarəçilik – "bir pəncərə" prinsipi tətbiq edilir. Artıq vətəndaşlar yalnız bir ünvana müraciət etməklə onlara məxsus daşınmaz əmlakları dövlət reyestrində qeydiyyata aldıra bilirlər. Bu da qeydiyyat üçün tələb olunan sənədləşdirmə prosesində rahatlığın, operativliyinin və şəffaflığın kifayət qədər artması deməkdir.

Komitənin son illərdə fəaliyyətində mütərəqqi addım sosial amillərin gücləndirilməsi və sosial tədbirlərin genişləndirilməsidir. Belə ki, daşınmaz əmlakın qeydiyyatı ilə bağlı yerlərdə mobil ofis xidmətləri və "Kütləvi çıxarış" kampaniyası həyata keçirilir. Bununla bağlı hər ay komitənin rəsmi internet səhifəsində mobil xidmət qrafiki də yerləşdirilir. Mobil ofis xidmətinin təşkilində məqsəd qeydiyyat xidmətlərini vətəndaşlara daha rahat və əlverişli üsullarla çatdırmaqdır. İndiyədək "Kütləvi çıxarış" kampaniyası çərçivəsində ümumilikdə 3800-ə yaxın vətəndaşa dövlət reyestrindən çıxarış təqdim olunub. Bundan əlavə, kampaniyadan da əvvəl başlamış mobil ofis xidmətləri vasitəsilə isə 2015-ci ildə respublika üzrə vətəndaşlardan 45500 müraciət qəbul edilib.

Tədbirin sonunda sorğu nəticələri, eləcə də bu nəticələri özündə əks etdirən yekun hesabatla bağlı müzakirələr aparılıb və verilən suallar cavablandırılıb.

# Bir çox Universitetlərin tələbələri bu il də yay istehsalat təcrübəsini RYTN Məlumat Hesablama Mərkəzində keçirlər

Hər il olduğu kimi bu il də bir çox nüfuzlu Universitetlərin tələbələri yay istehsalat təcrübəsini Məlumat Hesablama Mərkəzində keçirlər. Müvafiq razılaşmaya əsasən Azərbaycan Dövlət Neft Akademiyasının, Qafqaz Universitetinin, Azərbaycan Texniki Universitetinin tələbələri və xaricdə təhsil alan bir qrup tələbələr iyul-avqust aylarında təcrübə keçmək, praktik biliklərə yiyələnmək üçün Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinə müraciət ediblər. Qeyd edilən Universitetlər tərəfindən MHM-ə təqdim olunmuş siyahıya əsasən tələbələr 06.07.2015-07.08.2015-ci il tarixlərdə Elektron Hökumət həlləri - yeni texnologiyalar, Proqramlaşdırma, Veb proqramlaşdırma, İnformasia emalı və istismar, Marketinq, Əməliyyat və hesablaşmalar, Normativ sorğu informasiya şöbələrində və Elektron İmza Sertifikat Xidmətləri Mərkəzində təcrübə keçəcəklər və bu müddət ərzində bir çox nəzəri və praktik biliklərə yiyələnəcəklər.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na uyğun olaraq çox sayda Azərbaycan gəncləri xarici ölkələrdə təhsil alırlar. Təhsil müddəti başa çatdıqdan sonra dünyanın müxtəlif ölkələrinin ən nüfuzlu univerisitetlərində dövlət hesabına təhsil alan bu gənclər yüksək ixtisaslı mütəxəsis kimi ölkəmizdə fəaliyyət göstərəcəklər. Yay aylarında bu tələbələrin də bir çoxu MHM-də istehsalat təcrübəsi keçirlər.

**MHM-də təcrübə keçən tələbələrə aşağıdakı sahələr üzrə nəzəri və praktik biliklər aşılanır:**

- *"Elektron hökumət" portalı və elektron xidmətlər*
- *Elektron imza və onun tətbiq sahələri*
- *İKT sahəsində yeni texnologiyalar*
- *Müxtəlif dillərdə proqramlaşdırma*
- *Veb və mobil proqram əlavələrinin hazırlanması*
- *Marketinq və xidmətlərin satışı*
- *Telefon trafikinə görə yerli və beynəlxalq hesablaşmaların əsas prinsipləri*
- *Normativ informasiya bazasınn və telefon abunəçiləri kartotekasının formalaşdırılması*



- *Lokal, şəhərlərarası və beynəlxalq stansiyaların CDR fayllarının emalı prinsipləri və sair.*

Tələbələr peşəkar mütəxəssislərin yanında təcrübə keçməyin onlara nəzəri biliklərin praktika ilə uzlaşdırılmasında, yeni sahələr üzrə mühüm biliklərin əldə edilməsində, kollektivdəki fərdlərarası münasibətlərə uyğulaşmaqda və qrup üzvü kimi özlərini təsdiq etmələrində son dərəcədə faydalı olduğunu qeyd edirlər.

Məlumat üçün qeyd edək ki, RYTN MHM informasiya texnologiyaları sahəsində aparıcı müəssisələrdəndir və informasiya texnologiyalarının bütün sahələri üzrə peşəkar kadr potensialına malikdir. Müəssisənin əsas fəaliyyət sahəsi informasiya texnologiyalarının bütün istiqamətlərini əhatə edir. Həmçinin, MHM "Elektron Hökumət" portalının və "Elektron imza"nın operatorudur. MHM "Elektron Hökumət" portalı infrastrukturunun yaradılması və mərkəzi icra hakimiyyəti orqanları tərəfindən göstərilən e-xidmətlərin vahid platforma və "tək pəncərə" prinsipi əsasında əhali və təşkilatlar tərəfindən istifadəsini təmin edir. Eyni zamanda MHM-in Sertifikat xidmətləri Mərkəzi tərəfindən vətəndaşlara, fiziki və hüquqi şəxslərə e-imza sertifikatları hazırlanaraq təqdim edilir. Həmçinin, ölkə ərazisində fəaliyyət göstərmək istəyən SXM-lərini akkreditə edir və onları Milli Sertifikat Xidmətləri strukturuna daxil edir.

Qeyd edək ki, Məlumat Hesablama Mərkəzi İSO 9001:2008 və İSO 27001:2005 beynəlxalq keyfiyyət sertifikatlarına malikdir.

www.e-gov.az

## 01.07.2015 – 31.07.2015-ci il dövrü ərzində "Elektron Hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 451668 |
| 2 | Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi | TQDK | 204921 |
| 3 | Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu | TQDK | 139280 |
| 4 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | ƏƏSMN | 109737 |
| 5 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 70119 |
| 6 | Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər) ərizələrinin onlayn qəbulu | TQDK | 48919 |
| 7 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | ƏƏSMN | 47835 |
| 8 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 41529 |
| 9 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 40324 |
| 10 | Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi | RYTN | 29932 |
| 11 | Portal üzərindən istifadəçi qeydiyyatı | Elektron Arayışlar | 22714 |
| 12 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 21090 |
| 13 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 19900 |
| 14 | İş yerinə dair arayış | ƏƏSMN | 18547 |
| 15 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 17363 |
| 16 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 12047 |
| 17 | Vətəndaşa aid fərdi məlumatlar üzrə arayış | Elektron Arayışlar | 11933 |
| 18 | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 9921 |
| 19 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 8755 |
| 20 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 8117 |

## 01.08.2015-ci il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 82 | 169 | 251 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 31.07.2015 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 21201 | 6268 | 7629 | 35098 |

## 2015-ci ilin iyul ayı ərzində bütün qurumlar üzrə "Elektron Hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 15 | 854357 |
| 2 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 42 | 213053 |
| 3 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 7 | 178492 |
| 4 | Dövlət Sosial Müdafiə Fondu | 16 | 94172 |
| 5 | Elektron Arayışlar | 10 | 43186 |
| 6 | Daxili İşlər Nazirliyi | 3 | 3788 |
| 7 | Təhsil Nazirliyi | 6 | 1892 |
| 8 | "Azərişıq" ASC | 1 | 1627 |
| 9 | "Azərsu" ASC | 4 | 1135 |
| 10 | Mədəniyyət və Turizm Nazirliyi | 4 | 1116 |
| 11 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 5 | 1099 |
| 12 | Mərkəzi Seçki Komissiyası | 7 | 935 |
| 13 | Dövlət Gömrük Komitəsi | 6 | 802 |
| 14 | Əmlak Məsələləri Dövlət Komitəsi | 4 | 726 |
| 15 | Səhiyyə Nazirliyi | 7 | 578 |
| 16 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 566 |
| 17 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 13 | 428 |
| 18 | Milli Arxiv İdarəsi | 2 | 383 |
| 19 | Fövqəladə Hallar Nazirliyi | 3 | 347 |
| 20 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 342 |
| 21 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 281 |
| 22 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 269 |
| 23 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 254 |
| 24 | Ədliyyə Nazirliyi | 2 | 221 |
| 25 | Dövlət Statistika Komitəsi" | 4 | 204 |
| 26 | AzərEnerji" ASC | 1 | 158 |
| 27 | Vergilər Nazirliyi | 6 | 152 |
| 28 | Nəqliyyat Nazirliyi | 4 | 129 |
| 29 | Kənd Təsərrüfatı Nazirliyi | 19 | 72 |
| 30 | Baş Prokurorluq | 1 | 65 |
| 31 | Dövlət Sərhəd Xidməti | 2 | 62 |
| 32 | Dövlət Miqrasiya Xidməti | 1 | 61 |
| 33 | Xarici İşlər Nazirliyi | 1 | 60 |
| 34 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 57 |
| 35 | Gənclər və İdman Nazirliyi | 4 | 53 |
| 36 | Dövlət Dəniz Administrasiyası | 18 | 48 |
| 37 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 11 | 42 |
| 38 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 35 |
| 39 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 35 |
| 40 | Energetika Nazirliyi | 5 | 31 |
| 41 | İqtisadiyyat və Sənaye Nazirliyi | 1 | 29 |
| 42 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 9 | 25 |
| 43 | Müəllif Hüquqları Agentliyi | 5 | 15 |
| 44 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 15 |
| 45 | Müdafiə Sənayesi Nazirliyi | 2 | 14 |
| | **CƏMİ** | **288** | **1401411** |

www.e-gov.az

## "E-hökumət" portalında olan e-xidmətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş siyahı ilə

# MÜQAYİSƏLİ TƏHLİLİ

*01.08.2015*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 26 | 1 | 3 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 25 | 17 | 17 | 16 | 14 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 8 | 11 | 5 |
| 7 | Vergilər Nazirliyi | 62 | 57 | 59 | 60 | 58 |
| 8 | Energetika Nazirliyi | 8 | 5 | 5 | 5 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 15 | 10 | 12 | 15 | 14 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 15 | 14 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 18 | 18 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 1 | 1 | 5 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 4 | 6 | 16 | 5 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 32 | 33 | 30 | 30 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 16 | 35 | 26 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 3 | 6 | 14 | 11 |
| 23 | Əmlak Məsələləri Dövlət Komitəsi | 29 | 27 | 31 | 31 | 26 |
| 24 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 25 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 26 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 6 | 6 |
| 27 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 28 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 29 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 30 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 31 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 14 | 15 | 14 | 14 |
| 32 | Dövlət Miqrasiya Xidməti | 11 | 10 | 10 | 11 | 11 |
| 33 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 34 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 4 | 4 | 5 | 5 |
| 35 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 1 | 8 | 2 | 2 |
| 38 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 39 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 40 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 41 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **454** | **335** | **387** | **463** | **397** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | | | 2 | 2 | |
| 2 | "Azərsu" ASC | | | 3 | 5 | |
| 3 | "Azərenerji" ASC | | | 1 | 1 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | | | 6 | 7 | |
| 5 | Baş Prokurorluq | | | 1 | 1 | |
| 6 | Biləsuvar Rayon İcra Hakimiyyəti | | | 1 | 1 | |
| 7 | "Azərişıq" ASC | | | 2 | 2 | |
| 8 | Elektron Arayışlar | | | 6 | | |
| | **CƏMİ:** | | | **22** | **19** | |
| | **YEKUN** | **454** | **335** | **409** | **482** | **397** |

# "Elektron Hökumət" portalına daxil olanların sayı 2 300 721 nəfərə çatdı




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron Hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2015-ci ilin iyul ayının 31-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 8,204,936 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 2,300,721 nəfər olub. Belə ki, 2,300,721 nəfər ümumən 8,204,936 dəfə portala baxıb və 14,173,264 dəfə elektron xidmətlərə müraciət ediblər. Həmin şəxslər 28,327,790 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 24 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 28.1%-ni yeni istifadəçilər, 71.9%-ni isə təkrar müraciət edənlər təşkil edib.

İyul ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 874,169 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 319,715 nəfər olub. Həmin şəxslər 2,437,657 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 1,401,411 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 15 saniyə təşkil edib. İyul ayı ərzində portala müraciət edənlərin 25.6%-ni yeni istifadəçilər, 74.4%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 266,575-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 409 olub.




© 2015 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Nəsimi r-nu, Dilarə Əliyeva küç., 185
Tel.: 157; Email: office@rabita.az